Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 31 (1159) 16 fevral - 17 fevral 2016-cı il

(Əvvəli ötən sayımızda)

# Tovuz - 2015

**Azərbaycanın böyük kənd təsərrüfatı rayonlarından biri olan Tovuzun bugünkü mənzərəsi təbii ki, müqayisəli şəkildə yanaşanda qonaqda xoş bir ovqat yaradır. Yəni biz rayon mərkəzini gəzib dolaşdıqca aparılan tikinti-abadlıq işləri, tikilən yeni binalar, sosial obyektlər dərhal diqqətimizi çəkir və bizə əsas verirdi ki, bu şəhərin zaman-zaman yeniləşməsi barədə daxili bir qərar qəbul edək. Və biz də göz şahidi kimi bütün bu gördüklərimizi həm yaddaşımıza yazır, həm də bir qələm adamı olaraq indi ürəklə mətbuat səhifəsinə çıxarırıq.**

Bu gün Tovuz rayonunun sosial-iqtisadi inkişafına diqqət yetirərkən əldə etdiyimiz faktlar fikirlərimizi ifadə etməyə bir növü səbəb oldu. Və biz də məhz həmin faktlara söykənərək Azərbaycanın bu bölgəsinin sosial-iqtisadi durumunu müqayisəli şəkildə inkişaf mərhələsi kimi dəyərləndirdik. Açıq şəkildə etiraf etmək olar ki, Tovuz şəhəri və bütövlükdə bu bölgə əvvəlki beşilliklərə nisbətdə xeyli inkişaf yolu keçib. Təbii ki, burada əsas səbəb ölkə rəhbəri, Azərbaycan Respublkasının prezidenti cənab İlham Əliyevin "Regionların İnkişafına dair Dövlət Proqramını" imzalaması və bu sərəncamdan irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəltdiyi xüsusi diqqətdi. Birmənalı şəkildə demək olar ki, ölkə prezidenti Azərbaycanın bütün regionlarını, o cümlədən də Tovuz rayonunun inkişafı, yenidən qurulması, onun müasir tələblərə cavab verən bir ölkəyə çevrilməsi

**"... Ərzaq təhlükəsizliyi ilə bağlı institusional islahatlar aparılır, aqroparklar salınır, subsidiyaların verilməsi prosesi təkmilləşdirilir. Məhsuldarlığın artırılması prosesi də çox önəmlidir. Bizim ixrac potensialımızın artırılması da gündəlikdə duran məsələlərdən biridir. Çünki əminəm ki, biz yaxın gələcəkdə özümüzü bütün ərzaq məhsullarımızla təmin edəcəyik".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***



üçün gərək olan bütün şəraiti yaratmaqla yanaşı, həm də xüsusi bir tələbkarlıq ortaya qoymuşdu. Bu da rayon rəhbərliyinin, yəni rayon icra hakimiyyətinin başçısı Tofiq Zeynalovun və onun komandasını daha məsuliyyətli olmağa səfərbər etmişdi.

Bu gün Tovuz rayonunda həyata keçirilən tədbirlərə diqqət yetirərkən ilk növbədə kənd təsərrüfatı sektoru maraq doğurur. Məhz həmin maraqdan da çıxış edərək əldə etdiyimiz bilgilərə görə, ötən il Tovuz rayonunda əvvəlki illərlə müqayisədə məhsul buraxılışı və xidmətlərin həcmi 9 faizdən artıq yüksəlmişdi. Həmin artım sahələr üzrə götürəndə kənd təsərrüfatında 6 faizi ötüb keçmişdi. Deməli, bu da onu göstərir ki, 2014-cü ilə nisbətən 2015-ci ildə Tovuz rayonunda kənd təsərrüfatı sektoru üzrə 6 faiz irəliləyiş əldə edilmişdi. Məsələyə bir az obyektiv yanaşanda bu o deməkdir ki, rayonun kənd təsərrüfatı ilə məşğul olan sakinlərinin də həyat səviyyəsi, ailə büdcəsi məhz parametrlərlə yüksəlişə doğru getmiş və insanların maddi durumu müqayisəli şəkildə xeyli yüksəlmişdi. O ki, qaldı kənd təsərrüfatının özünün sahələrinə, burada da uğurlar göz önündədi. Yenə rəqəmlərə istinad etsək məlum olar ki, ötən il rayonda 9855 hektar buğda, 1286 hektar qarğıdalı bitkilərinin biçini aparılmışdı. Bu sahələrə ayrılmış diqqət, aparılan yemləmə tədbirləri sayəsində həmin ərazilərdən 31390 ton taxıl, 6122 ton qarğıdalı toplamaq mümkün olmuşdu. Ümumiyyətlə rayonda dənli bitkilərin əkilib-becərilməsi və onun məhsuldarlığı ilbəil artır. Özü də bu, əkin sahələrinin genişləndirilməsi hesabına deyil, keyfiyyətli becərmənin, yemləmənin hesabına əldə edilir. Ona görə də 2015-ci ildə Tovuz rayonunda hər hektardan təqribən 32 sentner taxıl götürülmüşdü. Bu da əvvəlki ildə yenə vurğulayaq ki, bir sentnerə qədər artıqdır. Təbii ki, həmin sentneri hektara çevirəndə, onda nə qədər yüksək, nə qədər artıq məhsul əldə edildiyini izləmək mümkün olar.

Bu gün ümumi statistikaya diqqət yetirəndə onda aydın olur ki, 2014-cü illə müqayisədə 2015-ci ildə Tovuz rayonunda hektarda əldə olunan məhsuldarlığın hesabına rayonda 440 ton artıq taxıl, 9000 tona yaxın kartof, 4000 tona yaxın tərəvəz, 160 tona yaxın meyvə, 1000 tona yaxın üzüm əldə olunubdu. Burada onu təkrar etmək yerinə düşər ki, bu rəqəmlər 2014-cü illə 2015-ci ilin məhsul fərqinin artım göstəricisidir. Hələ onu da vurğulamaq lazımdır ki, 2015-ci ildə Tovuz rayonunda yerli toxum istehsalı da diqqət mərkəzində saxlanılmış və nəticədə rayonda 700 tona yaxın toxum istehsal olunmuşdu. Bu da həm ayrı-ayrı şəxslərin, həm də sahibkarların toxuma olan ehtiyacının ödənilməsində həm ucuz, həm də keyfiyyətli bir şəkildə ödənilməsinə imkan verir.

Kənd təsərrüfatının heyvandarlıq sahəsi ilə məşğul olan Tovuz sakinləri üçün də müəyyən imkanlar yaradılıb. Həmin imkanlardan çıxış edən kənd adamları mal-qaranın baş sayının artırılması üçün əldə olunmuş şəraitdən bacarıqla istifadə edirlər. Çünki həm örüş, həm də yem ehtiyatının olması adamlara heyvandarlıqla məşğul olmağa imkan verir. Bax, bu faktın özünü də rəqəmlərin dili ilə ifadə etsək, onda görərik ki, ötən il 2014-cü illə müqayisədə Tovuz rayonunda iribuynuzlu mal-qaranın baş sayı təqribən 500 baş, qoyun və keçilərin baş sayı isə 2000-dən çox artaraq bütövlükdə rayonda saxlanılan heyvanların artımında 2 faizə qədər artımın qeyldə alınmasına imkan veribdi. Nəticədə rayonda ət istehsalı 5 faizdən çox, süd istehsalı 2,5 faizdən artıq, yumurta istehsalı 5 faizdən çox artmış, bu da həm yerli tələbatın ödənilməsində, həm də ölkənin iri şəhərlərində Tovuz məhsullarının satışının təşkil olunmasında yaxşı bir nəticə kimi qiymətləndirilmişdir.

**Bəli, bu gün Tovuz rayonunda kənd təsərrüfatı ilə yanaşı, rayonun tikinti-abadlıq, elektrik enerjisi, işıq, qaz və sairə sahələrə olan uğurları da diqqət çəkir. Bütün bunlar isə ölkə Prezidentinin qarşıya qoyduğu vəzifələrin icrasının müsbət bir göstəricisidir.**

***Əbülfət MƏDƏTOĞLU***



AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ